UOT 32; UOT 327

MƏŞDİ İSMAYILOV
Bakı Dövlət Universitetinin müəllimi
ORCID iD: 0000-0003-4039-5433
m14ismayilov@gmail.com

SİVİLİZASİYALARIN MORFOLOGİYASI: NƏZƏRİ-KONSEPTUAL ƏSASLAR

DOI: https://doi.org/10.36719/2708-065X/107/146-149

Alimlər arasında mədəniyyət və sivilizasiyanın məzmun baxımından qeyri-müəyyənliklər daşıdığına dair demək olar ki, istisnasız olaraq geniş yayılmış konsensus mövcuddur. Mədəniyyət və sivilizasiya anlayışlarının ayrıca əhatə dairəsindən asılı olmayaraq, hər iki fenomen şübhəsiz qəbul edilə bilən ümumi keyfiyyətə malikdir. Həm mədəniyyət, həm də sivilizasiya insan əməllərindən əvvəl təbiətdə mövcud olan hadisələr deyil. Onların meydana gəlməsinə, insanlarda doğuşdan var olan qabiliyyətlərin nəticəsi kimi baxmaq olmaz. Bu halda mədəniyyət və sivilizasiya insanların nə təbiətdə, nə də öz bioloji quruluşunda rast gəlinməyən hadisələrdir. İnsanlar imkanları əhatəsində öz seçimləri ilə mədəniyyət və sivilizasiya yaradırlar. Anlayışlar elmlərin təfəkkür, dərk etmə və izah etmə vasitəsidir. Elmin metodoloji prinsipi və elmi tədqiqat strategiyası ilə elmi nəzəriyyə həmişə fərziyyə olaraq qalacaqdır. Onun üçün nəzəriyyədən gözlənilən qətilik və dəyişməzlik deyil. Ontoloji və qnoseoloji fəaliyyət proseslərini izah edən bütün nəzəriyyələrdə əsas əlaqə və korrelyasiya elementləri "mən" və "başqası" vəziyyətlərini zəruri edir. Fərqli amillərlə formalaşan və müxtəlif nəticələr verən bu münasibətlər həm də tarixi proseslərdə müxtəlif ictimai strukturların və buna görə də fərqli sivilizasiyaların formalaşmasına şərait yaratmışdır.

Açar sözlər: Sivilizasiya, nəzəriyyə, konseptual əsaslar, mədəniyyət, barbar.

Giriş. İnsan düşünən, hissləri ilə yaşayan, bütün bu düşüncə və hissləri hər hansı bir şəkildə xaricə çatdırmağa çalışan varlıqdır. İnsanın bilik, düşüncə, inanc və hiss kimi ifadə edə biləcəyimiz bütün daxili fəaliyyətlərini "insan daxili dünyası" adlandıra bilərik. Daxili aləmin xarici aləmə köçürülməsi birincisi"dil" vasitəsilə, digəri isə davranış və hərəkətlə daxili aləmin xarici aləmə köçürülməsidir. Birinci situasiya, yəni daxili aləmin zahirdə şifahi təzahürü cəmiyyəti və ya ən azı onun daxili dünyasını əks etdirməyə çalışan insandan başqa, mütləq ikinci şəxsin olmasını tələb edir. Bu onu göstərir ki, insan "ictimai varlıqdır", yəni o, ancaq cəmiyyətdə yaşaya bilər. Təbii ki, cəmiyyət öz daxili aləmini başqa insanlarla paylaşaraq xarici aləmə əks etdirmək zərurətindən yaranmayıb. Əksinə, cəmiyyət insan təbiətinin özündən yaranıb və digər gündəlik fəaliyyətlərimizdə dildən istifadə etmək zərurəti həm də təbiətimizin bir parçasıdır. Əslində insanın daxili aləminin istər ünsiyyətdə, istərsə də münasibət və hərəkət baxımından xaricə çevrilməsi cəmiyyəti mütləq şərtləndirir. Sivilizasiya dediyimiz formalaşma həyatın hər sahəsini əhatə edən o qədər çox elementi ehtiva edir ki, saysız-hesabsızdır. Sivilizasiya adı altında bəhs etdiyimiz dünyagörüşü, varlıq anlayışı, kainat ideyası, kosmologiya, əxlaq, siyasi və ictimai nizam, estetika anlayışı, şəhər həyatı, mədəniyyət və digər anlayışlar göstərir ki, əslində sivilizasiya birdən çox anlayışdan ibarət "mərkəzi anlayışdır". Bütün mərkəzi anlayışlar kimi, sivilizasiya sözü də Kliford Qertzin "qalın təsvir" adlandırdığı sözə uyğun gəlir: eyni zamanda ideyanın və hərəkətin həm məzmununu, həm kontekstini, həm də onları təşkil edən elementləri özündə birləşdirən təsvir. Sivilizasiyanın bu zəngin, çoxqatlı semantik sahəsi onun aydın tərifini çətinləşdirir və bütün tərifləri qismən və qeyri-adekvat edir. Ona görə də sivilizasiya anlayışını müəyyənləşdirməyə çalışarkən bu ehtiyatlılığı nəzərə almaq lazımdır.

Nəzəri-konseptual məsələlər. Maarifçilikdən sonrakı Qərb təfəkküründə sivilizasiya sözünə müxtəlif mənalar verilmiş və xüsusilə barbarlığın və primitivliyin əksi kimi işlədilmişdir. Sivilizasiyanı Avropanın ağlı və tarixi ilə eyniləşdirən maarifçi mütəfəkkirlər qeyri-Qərb cəmiyyətlərini mədəniyyətsiz və yarı sivil toplumlar kimi görürdülər. Avropa sivilizasiyasına əsaslanan tarix və mədəniyyət

təsnifatları mədəniyyətlərin və sivilizasiyaların iyerarxik tipologiyasını meydana gətirdi və beləliklə, sivilizasiya sözü avrosentrik düşüncənin əsas anlayışlarından birinə çevrildi.

Bir icmanın inkişaf etmiş, qabaqcıl, ibtidai və ya barbar olaraq təyin edilməsi XVIII-XIX əsrlərdə mücərrəd akademik müzakirə deyil, konkret nəticələri olan siyasi bir hərəkət idi. "Sivilizasiya missiyası" Afrikadan Hindistan yarımadasına və Cənub-Şərqi Asiyaya qədər geniş bir coğrafiyada Avropa imperializmini qanuniləşdirən mühüm konseptual alət idi. Norbert Eliasın sivilizasiya anlayışının funksiyası ilə bağlı fikri bu konsepsiyanı təsdiqləyir: Sivilizasiya sözü "Qərbin özünü dərk etməsini" ifadə edir. Biz buna milli şüur da deyə bilərik [2, s.162]. Bu söz Qərb cəmiyyətinin son iki-üç əsrdə özünü əvvəlki cəmiyyətlərdən və ya "daha ibtidai" müasir cəmiyyətlərdən üstün hesab etdiyi hər şeyi ümumiləşdirir. Bu terminlə Qərb cəmiyyəti özünün özünəməxsus xarakterini və fəxr etdiyi şeyləri: texnologiya səviyyəsini, münasibət və davranışının xarakterini, elmi biliklərinin və ya dünyagörüşünün mükəmməlliyini və bir çox başqa şeyləri təsvir etmək məqsədi daşıyır".

Bu məqamda həm fəlsəfi, həm də siyasi problemlə qarşılaşırıq ki, hansı meyarlara görə bir cəmiyyət ibtidai və ya inkişaf etmiş sayıla bilər ya yox?! Sivilizasiyanın meyarı elm və texnologiyada irəliləyişdirmi yoxsa XIX əsr kapitalistlərinin iddia etdiyi kimi ticarət və azad bazarla eyni şeydirmi?... Bu məqama diqqət çəkən Lusi Febvri sivilizasiyanın obyektiv müşahidə əsasında vəziyyətin obyektiv təyini kimi təqdim edilə biləcəyini söyləyir. Sivilizasiya bir cəmiyyətin ümumi sahib olduğu siyasi, sosial və mənəvi dəyərlərin məcmusudur. Burada sivilizasiya bir cəmiyyətin ümumi dəyərlərinə və tarixi toplanmasına istinad edir və heç bir əlavə qiymətləndirmə ehtiva etmir. Lakin bu, sivilizasiya anlayışının funksiyası baxımından kifayət qədər izahedici tərif deyil. Çünki sivilizasiya həm də arzulanan, təqlid edilən, olması lazım olan, qabaqcıl və dəyərli bir anlayışdır. Sivil olmaq həm də dəyər istehsal edə bilmək deməkdir. Buna görə də ümumi qəbula görə, təşkilatlana, nizam-intizam qura və qanuna əsaslanan bir sistem qura bilən cəmiyyətlər sivilizasiya xüsusiyyətlərinə malikdir və bu xüsusiyyətlərə malik olmayan cəmiyyətlərdən daha qabaqcıl və üstün mövqe qazanırlar.

Bu üstünlüyün sivil cəmiyyətlərə hansı imtiyazlar və vəzifələr qoyduğu məsələsi sivilizasiya tarixi ilə bağlı müzakirələrdə əsas məsələlərdən biridir. Ceremi Bentamdan tutmuş Tomas Makoleyə qədər XIX əsr Avropa ziyalıları və hüquqşünaslarının fikrincə sivilizasiyanın ən mühüm meyarı konkret hüquq sisteminin olmasındadır. Məsələn, XIX əsr Britaniya cəmiyyəti konkret hüquq sistemi olmadığı üçün, yarı-mədəni sayıla bilən Hindistan cəmiyyətindən üstün hesab edilirdi. Ona görə də Böyük Britaniya Hindistan cəmiyyətinə yeni hüquq sistemini tətbiq etməli, yeni təhsil sistemi qurmalı və bununla da mədənilik meyarı olan asayiş ideyalarını cəmiyyətə aşılamalı idi.

XIX əsrdə cəmiyyətləri iyerarxik təsnifata tabe etdirən və qeyri-Avropa cəmiyyətlərinin geriliyini ifadə etmək üçün istifadə edilən sivilizasiya ideyasının yeganə meyarı hüquq deyildi. Elm, texnika və sənaye də sivillik və sivilizasiya meyarları kimi qəbul edilmiş və elmi inqilabdan kənarda qalan cəmiyyətlərin inkişaf səviyyəsini müəyyən etmək üçün istifadə edilmişdir.

Sivilizasiya insanın təbiət üzərində hökmranlığıdır deyə bilərik. Arnold Toynbi sivilizasiyanı insanlara təsir edən ətraf mühit şəraiti olaraq deyil, "insanların mühitlərini öz istəklərinə uyğun təşkil etmə prosesi" olaraq təyin edir. Beləliklə, insan iradəsi tədricən insan-təbiət münasibətində əsas təyinedici amilə çevrilir.

Adam Kuperin fikrincə, XIX-XX əsrlərdə alman ziyalıları mədəniyyəti sivilizasiyaya qarşı müdafiə etməyə təhrik etdilər. Mədəniyyət və sivilizasiya arasında gözlənilən bu qarşıdurma şişirdilmiş təsvir kimi tənqid oluna bilər. [1, s.130]. Əslində biz bilirik ki, Hegel və Freyd bu iki anlayışı zaman-zaman bir-birini əvəzləyərək istifadə etmişlər. Məsələn, Hegel 1830-31-ci illərdə, Berlin Universitetində verdiyi seminarlarda mədəniyyət və sivilizasiya sözlərini sinonim kimi işlətmiş, Nitsşe və Şpenqlerdə gördüyümüz müxalifətdən uzaq durmuşdur. Buna baxmayaraq, ən kəskin ifadəsini Nitsşedə tapan "anti-sivilizasiya" alman düşüncə ənənəsində mühüm yer tutur. Nitsşe sivilizasiyanı mədəniyyətin icazə verdiyindən tamamilə fərqli, hətta mədəniyyətin əksi kimi ifadə etmişdir. Nitsşenin alman davamçıları bu perspektivi öz xüsusi şərtlərinə uyğunlaşdıraraq alman mədəniyyətinin ingilis, fransız, ispan və ya rus mədəniyyətindən fərqli olduğunu deməklə kifayətlənməmiş, eyni zamanda fərqin əsaslı olduğunu iddia etmişlər.

Nəticə. Sivilizasiya sözünün tarix, siyasət və sosiologiya sahələrində geniş yayılması sözün çoxqatlı quruluşuna işarə edir. Adət, ənənə və mədəniyyətlə müqayisədə sivilizasiya daha yüksək səviy-

yədə abstraksiya və ümumilik ifadə edir. Ona görə də deyə bilərik ki, eyni sivilizasiya hövzəsi daxilində müxtəlif mədəniyyətlər və ənənələr mövcuddur. Sivilizasiyanın daha yüksək təhlil səviyyəsinə aid olan "mücərrəd" mənaları da əməldə üzə çıxan mədəniyyət, siyasət, şəhərlər, ictimai quruluş, elm və incəsənət kimi bəşəri sahələri müəyyən edir. Beləliklə, sivilizasiyalar bir tərəfdən dünyagörüşü və varlıq anlayışı kimi ifadə etdiyimiz metafizik çərçivəyə, digər tərəfdən isə sosial, iqtisadi və siyasi nizam ideyasına əsaslanır. Deyə bilərik ki, mədəniyyət millidir, sivilizasiya beynəlmiləldir. Türklər, ərəblər və iranlılar fərqli mədəniyyətlərə və hətta fərqli din anlayışlarına malikdirlər. Halbuki bunların hamısı İslam sivilizasiyası daxilindədir. Alman, ingilis və fransız üçün də vəziyyət eynidir. Lakin onların dilləri, adət-ənənələri, əxlaq anlayışları fərqlidir. Eyni dinə mənsub olsalar da, dindən kənar yanaşmaları fərqlidir. Sivilizasiyanın milliliyi yoxdur. Bununla belə, mədəniyyət və sivilizasiya qarşılıqlı təsirdədir. Mədəniyyət inkişaf etdikcə sivilizasiya da inkişaf edir. Sivilizasiya sahəsindəki inkişaflar mədəni dəyərlərin formalaşmasında və dəyişməsində rol oynayır.

ƏDƏBİYYAT

1. Adam Kuper, "Culture, The Anthropologists' Account", Harvard University Press, 2010, 320 s.
2. Elias Norbert, "The Civilizing Process: Sociogenetic and Psychogenetic Investigations'', Blackwell Publishing, 2000, 592 s.
3. Nisbett, R. E. The geography of thought: How Asians and Westerners think differently- and why. New York: Free Press. 2004, 288 s.
4. Bruce Mazlish, Civilization and Its Contents, Stanford University Press, January 18, 2005, 206 s.
5. Fernand Braduel, A History of Civilizations, çev. Richard Mayne, Penguin Books, New York, 2013, 640 s.
6. Skirbekk, Gunnar & Gilje, Nils. "Felsefe Tarihi", (Akbaş, E.; Mutlu, Ş.: Çev), Kesit Yayınları, İstanbul, 2011, s.98-100.
7. John Stuart Mill, "Civilization", London: Kessinger Publishing, 2005, 56 s.
8. Watts, D.J. "Everything is obvious: Why common sense is nonsense". London: Atlantic. 2012.

МАШДИ ИСМАИЛОВ
преподаватель Бакинского государственного университета

МОРФОЛОГИЯ ЦИВИЛИЗАЦИЙ: ТЕОРЕТИКО-КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ

Почти без исключения среди ученых существует широко распространенный консенсус в отношении того, что культура и цивилизация несут в себе неопределенность с точки зрения содержания. Независимо от раздельного охвата понятий культура и цивилизация, оба явления имеют общее качество, которое можно принять без сомнения. И культура, и цивилизация не являются явлениями, существовавшими в природе до действий человека. Их формирование нельзя рассматривать как результат врожденных способностей человека. В данном случае культура и цивилизация - явления, которые невозможно обнаружить ни в природе, ни в биологической структуре людей. Люди создают культуру и цивилизацию своим выбором в пределах своих возможностей. Концепции – это средства мышления, понимания и объяснения наук. Методологический принцип науки и стратегия научных исследований, научная теория всегда останутся гипотезой. Для него нет уверенности и неизменности, ожидаемых от теории. Во всех теориях, объясняющих процессы онтологического и гносеологического действия, основные элементы связи и корреляции обусловливают необходимость состояний «Я» и «Другой». Эти отношения, сформированные разными факторами и дающие разные результаты, также создали условия для формирования в исторических процессах разных социальных структур и, следовательно, разных цивилизаций.

Ключевые слова: Цивилизация, теория, концептуальные основы, культура, варвар.

MASHDI ISMAILOV
Lecturer at Baku State University

MORPHOLOGY OF CIVILIZATIONS: THEORETICAL-CONCEPTUAL FOUNDATIONS

Almost without exception, there is a widespread consensus among scholars that culture and civilization carry uncertainties in terms of content. Regardless of the separate scope of the concepts of culture and civilization, both phenomena have a common quality that can be accepted without doubt. Both culture and civilization are not phenomena that existed in nature before human actions. Their formation cannot be seen as the result of innate abilities in people. In this case, culture and civilization are phenomena that cannot be found either in nature or in the biological structure of people. People create culture and civilization by their choices within their possibilities. Concepts are the means of thinking, understanding and explaining sciences. The methodological principle of science and the strategy of scientific research, scientific theory will always remain a hypothesis. For him, the certainty and immutability expected from the theory is not. In all theories explaining the processes of ontological and epistemological action, the basic elements of connection and correlation necessitate the states of "I" and "other". These relationships, formed by different factors and giving different results, also created conditions for the formation of different social structures and therefore different civilizations in the historical processes..

Keywords: Civilization, theory, conceptual foundations, culture, barbarian.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 oktyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: f.ü.f.d. Nazim İbadov, s.e.d. Adil Mirabdullayev.